# Qlobal informasiya mübarizəsində fəal strateji mövqe



*Çağdaş dövrdə medianın rolu təkcə informasiya yayımı ilə məhdudlaşmır, o, ictimai rəyin formalaşmasında, demokratik institutların möhkəmlənməsində və şəffaf idarəetmənin təmin olunmasında həlledici vasitəyə çevrilib. Cəmiyyətin aynası olan mətbuat dövlətlə vətəndaş arasında körpü rolunu oynayaraq həm maarifləndirmə funksiyasını yerinə yetirir, həm də ictimai nəzarətin mühüm aləti kimi çıxış edir. Məhz buna görə də, söz azadlığının qorunması, jurnalistlərin peşəkar fəaliyyətinə şərait yaradılması və medianın institusional tərəqqisi ölkələrin demokratik inkişaf səviyyəsinin göstəricilərindən biri kimi qəbul olunur. Azərbaycan da bu mənada son illərdə mətbuatın modernləşdirilməsi, informasiya təhlükəsizliyinin təmin olunması və milli media sisteminin rəqəmsal çağırışlara uyğunlaşdırılması istiqamətində əhəmiyyətli addımlar atır. Lakin mətbuata verilən dəyərin real mahiyyəti yalnız hüquqi baza ilə deyil, onun funksiyasının düzgün anlaşılması ilə ölçülür. Bu baxımdan, medianın strateji resurs kimi qəbul edilməsi cəmiyyətin inkişafının vacib komponentidir.*

III Şuşa Qlobal Forumu sübut etdi ki, informasiya dövründə medianın rolu həm də milli suverenliyin, ictimai sabitliyin və beynəlxalq legitimliyin təminatında əsas vasitədir. İnformasiya təhlükəsizliyi, medianın sülh quruculuğundakı rolu və postmünaqişə cəmiyyətində ictimai etimadın bərpası kimi aktual məsələlərin dayanması Azərbaycan dövlətinin mətbuata verdiyi dəyərin daxili siyasət müstəvisində, beynəlxalq diskursda təbliğinə yönəlmiş strategiyanın tərkib hissəsidir. Müxtəlif ölkələrdən media mütəxəssislərinin, nü-




fuzlu beynəlxalq jurnalistlərin və informasiya texnologiyaları sahəsində ekspertlərin iştirakı Azərbaycanın informasiya təhlükəsizliyi prioritetlərinə diqqət yönəltmək qabiliyyəti, qlobal informasiya axınında regionun obyektiv və balanslı təmsilinə nail olmaq baxımından da mühüm addım idi. Müzakirələr zamanı Azərbaycanın qarşılaşdığı informasiya təxribatları, dezinformasiya hücumları və "məlumat müharibələri"ndəki təcrübəsi beynəlxalq platformada paylaşılaraq mətbuatın milli təhlükəsizlik komponenti olduğuna bir daha diqqət çəkildi. Prezident İlham Əliyev Forum iştirakçıları ilə görüşündə mətbuatımızın nüfuzunu yenidən vurğuladı: "Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur. Mən bu tezisə şərh vermək istəmirəm. Amma fakt odur ki, bu gün Azərbaycan mediasını bir çox ölkələrdə müxtəlif səviyyələrdə oxuyurlar, mediada gedən yazıları, məqalələri təhlil edirlər. O məqalələrin Azərbaycanın rəsmi mövqeyinə nə dərəcədə uyğun olub-olmaması ilə bağlı da fərziyyələr irəli sürülür. Bu, deməyə əsas verir ki, mediamız doğrudan böyük inkişaf yolu keçib. Media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam. Çünki medianı nüfuzlu edən məhz əməkdaşlardır, sizin kimi insanlardır, sizin həmkarlarınızdır".

Ölkə başçısının çıxışı Azərbaycanın informasiya siyasətinin strateji konturlarını və milli medianın bu çərçivədəki mövqeyini ifadə edir. Prezidentin fikirləri informasiya təhlükəsizliyi, dövlət maraqlarının müdafiəsi və media-dövlət münasibətlərinin dinamikasına dair mühüm tezisləri özündə birləşdirir. Burada media ölkənin maraqlarını beynəlxalq müstəvidə müdafiə edən, informasiya cəbhəsində ön xətdə duran strateji alət kimi təqdim olunur. Bu yanaşma medianın "dördüncü hakimiyyət" kimi güc balansında yeri olduğunu təsdiqləməklə yanaşı, onun milli təhlükəsizlik və ideoloji müqavimət baxımından da əhəmiyyətini qabardır. Ölkə başçısı çıxışı zamanı uzun illər müdafiə mövqeyində qalmağa məcbur olan Azərbaycan mediasının artıq beynəlxalq informasiya cəbhəsində təşəbbüsü ələ aldığını göstərir. Prezident qarşı tərəfin informasiya təxribatlarına vaxtında və kəskin müdaxilə ilə cavab verilməsinin vacibliyini önə çəkir. Sözügedən yanaşma həm də dövlətin informasiya strategiyasında çevik diplomatiya ilə yanaşı, intellektual və ideoloji səfərbərliyi önə çıxarmağa çalışdığını göstərir. Yəni jurnalist yalnız xəbəri yazan şəxs deyil, həm də informasiya daşıyıcısıdır. Artıq xarici ekspert dairələri Azərbaycan mediasında yayımlanan materiallara təkcə "informasiyadır" kimi deyil, həm də "rəsmi mövqe", "strateji mesaj" kontekstində baxırlar. Bu isə medianın rəsmi-diplomatik funksiyanı yerinə yetirən vasitəyə çevrildiyini sübut edir. Bu gün Azərbaycan mətbuatı həm informasiya resursu, həm də yumşaq güc (soft power) vasitəsi kimi medianın beynəlxalq təsir imkanlarının artdığını göstərir.

Dövlət başçısı "media deyəndə mən ilk növbədə jurnalistləri nəzərdə tuturam" fikri isə medianın texnoloji və struktur imkanlarından daha çox insan kapitalına söykəndiyini göstərir. Bu, medianın dəyərini ölçərkən təkcə platformaların, tirajların və texnologiyanın deyil, bilavasitə jurnalistin peşəkarlığının, əxlaqının və məsuliyyətinin əsas göstərici olduğunu vurğulayan olduqca humanist və realist yanaşmadır. Çıxışın sonunda Prezidentin medianı onu formalaşdıran fərdlər, jurnalistlər üzərindən dəyərləndirməsi informasiya təhlükəsizliyində insan faktorunun həlledici olduğunu ortaya qoyur. Deməli, jurnalist yalnız qələm sahibi deyil, həm də vətəndaş mövqeyi daşıyır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu ilin fevralında "REAL TV"yə müsahibəsində də bunu qeyd edib: "Siz bilirsiniz ki, mən Azərbaycan mediasına həmişə böyük dəstək göstərmişəm. Mənim media nümayəndələri ilə çoxsaylı görüşlərim bunun əyani sübutudur və həmişə çalışmışam ki, öz işimlə medianın inkişafına dəstək verim. Şadam ki, Azərbaycan mediası bu gün ölkəmizin həyatında önəmli rol oynayır. Deyə bilərəm ki, mən də öz işimdə mediadan gələn xəbərlərə istinad edirəm, bəzi hallarda mediadan bir çox məsələləri öyrənirəm, dərhal reaksiya verirəm. Bu barədə mən bir neçə dəfə öz fikirlərimi bildirmişəm və hesab edirəm ki, gələcəkdə Azərbaycan mediası ölkəmizin həyatında bundan da böyük rol oynayacaqdır".

Prezidentin çoxsaylı xarici KİV-lərə müsahibələri də daxili auditoriya ilə kommunikasiya formasının sistemli və çoxformatlı şəkildə qurulması ilə bağlıdır. Dövlət başçısı ölkə daxilində baş verən proseslər, görülən işlər və qarşıya qoyulan hədəflər barədə mütəmadi olaraq rəsmi çıxışlar edir, ictimaiyyətə açıq bəyanatlar verir. Bu çıxışlar hesabat xarakteri daşıyır və dövlət-vətəndaş münasibətlərinin şəffaflıq üzərində qurulmasına xidmət edir. Burada diqqətçəkən məqam odur ki, daxili ictimaiyyətə informasiya təkcə hadisələrin təsviri şəklində deyil, həm də onların siyasi, iqtisadi və sosial mənalarını izah edən strateji çərçivəyə salan formada təqdim olunur. Həmin model strateji informasiya siyasətinin formalaşmasında liderliyin rolunu göstərir, milli informasiya təhlükəsizliyinin təminatında fərdi məsuliyyətin institutlaşdığını sübut edir. Prezidentin açıq və hədəfli kommunikasiya strategiyası informasiya əsrində dövlət idarəçiliyinin dəyişən standartlarına uyğunlaşmaqla yanaşı, Azərbaycanın beynəlxalq imicinin formalaşmasında da mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuata verdiyi dəyər təkcə bəyanatlarla deyil, ardıcıl və sistemli qərarlarla da təsdiqini tapır. Dövlət başçısının jurnalistika sahəsinə münasibəti ölkənin strateji inkişaf kursunun bir hissəsi kimi çıxış edir. Bu baxımdan, Prezidentin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 2025-ci ilin aprel ayında imzaladığı Sərəncam milli mətbuatın tarixi, funksional rolu və gələcək inkişaf trayektoriyasına dair mühüm bir siyasi sənəd kimi qiymətləndirilməlidir. Sərəncamda maarifçi ziyalı və publisist Həsən bəy Zərdabinin 1875-ci ildə Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzetinin milli mətbuatımızın bünövrəsini təşkil etməsi və ölkənin ictimai-siyasi həyatında dönüş nöqtəsi kimi tarixə düşməsi xüsusi vurğulanır. Bu fakt tarixi qiymətləndirmə, müasir medianın ideoloji və mənəvi mirasının haradan qaynaqlandığını göstərən strateji xatırlatmadır.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 23 iyul (№ 150).- S.5.